***Zöhrə Fuad qızı ƏLİYEVA***
***Azərbaycan Kooperasiya Universitetinin***
***“Maliyyə və turizm işi” fakültəsinin 4-cü kurs,***
***276 saylı qrup tələbəsi***

***Aygün Tapdıq qızı MƏMMƏDOVA***
***Azərbaycan Kooperasiya Universitetinin***
***“Maliyyə və bank işi” kafedrasının müəllimi***

# AZƏRBAYCANDA ƏTRAF MÜHİTİN SAĞLAMLAŞDIRILMASINDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ROLU

*Mən fikrimi Ümummilli Lider Heydər Əliyevin hikmətli kəlamı ilə başlamaq istəyirəm:*
*“Bu təşəbbüsün bir parçası ol! Ağac ək və təbiətə töhfə ver”.*

***Xülasə***

Azərbaycanda ətraf mühitin sağlamlaşdırılmasında Ümummilli Lider Heydər Əliyevin rolu respublikamızda ekoloji problemlərin davamlı inkişaf prinsipləri əsasında həll edilməsi istiqamətində ardıcıl görülən tədbirlərdən ölkədə iqtisadiyyatın bütün sahələrinin inkişafı ilə bağlı mövcud olan ekoloji problemlərin həll edilməsi üçün təmiz texnologiyaların tətbiqindən sosial-iqtisadi inkişaf sahəsində müəyyən olunmuş düzgün siyasət nəticəsində bu siyasətin tərkib hissəsi olan ekoloji durumun sağlamlaşdırılmasından ibarətdir.

***Açar sözlər: Ekoloji təhlükəsizlik, ətraf mühit, təbii sərvət, yaşıllaşdırma, abadlaşdırma, ekologiya.***

## *Giriş*

Heydər Əliyevin qurduğu müstəqil Azərbaycanda ekoloji mühitin sağlamlaşdırılması dövlət siyasətində prioritet məsələlərdən biridir.

Ölkəmizdə ekoloji problemlərin həlli məqsədilə ardıcıl olaraq Dövlət Proqramları qəbul olunur və icra edilir. Bunun nəticəsidir ki, ekoloji təhlükəsizliyin təmin olunması sahəsində mühüm nailiyyətlər əldə edilib. Bu kontekstdə aidiyyəti qurum olan Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən həm ətraf mühitin mühafizəsi baxımından, həm də insanların sağlam ətraf mühitdə yaşamaq hüququnun təmin olunması istiqamətində səmərəli tədbirlər həyata keçirilir.

Ümumiyyətlə, Azərbaycan Respublikasında aparılan uğurlu daxili və xarici siyasət, həyata keçirilən islahatlar və irimiqyaslı layihələr sayəsində ictimai həyatın iqtisadi və sosial-siyasi sahələrində dinamik inkişafa nail olunub. Cəmiyyətin demokratikləşməsi və əhalinin rifahının yüksəlməsi ilə müşayiət olunan bu inkişaf respublikanın beynəlxalq nüfuzunu, müdafiə qüdrətini, iqtisadi potensialını artırmaqla, Azərbaycan dövlətinin qloballaşan dünyanın bərabərhüquqlu subyekti kimi çıxış etməsinə və inkişaf etmiş ölkələr sırasına daxil olmasına möhkəm zəmin yaradıb.

Bütün bunlarla yanaşı, Azərbaycanda ətraf mühit məsələlərinə böyük əhəmiyyət verilməsi, o cümlədən irimiqyaslı ekoloji layihələrin həyata keçirilməsi ölkə vətəndaşlarına daha təmiz mühitdə yaşamağa imkan yaradır. İqtisadiyyatın sürətli inkişafının nəticəsi olaraq gəlirlərin qeyri-neft sektoruna yönəldilməsi ekoloji layihələrin həyata keçirilməsi imkanlarını xeyli genişləndirib.

Müstəqillik əldə etdikdən və bazar iqtisadiyyatı yolunu seçdikdən sonra ölkədə ətraf mühitin mühafizəsi sahəsində yeni ekoloji siyasət formalaşıb. Ətraf mühitin mühafizəsi, insanların sağlam təbii mühitdə yaşaması və təbii sərvətlərdən xalqımızın rifahının yaxşılaşdırılması naminə səmərəli istifadə edilməsi məsələsi hazırda aparılan sosial-iqtisadi islahatlarda mühüm yer tutur.

Heydər Əliyev respublikamızda ekoloji problemlərin davamlı inkişaf prinsipləri əsasında həll edilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirib. Azərbaycan xalqının və dövlətçiliyinin inkişafında misilsiz xidmətləri olan Ulu öndərin fəaliyyəti dövründə ölkədəki ekoloji vəziyyət həmişə xüsusi diqqət mərkəzində olub, ətraf mühitin mühafizəsi ilə bağlı müəyyən olunmuş

prioritetlər üzrə tədbirlər görülüb. Heydər Əliyevin uzaqgörən siyasəti, o cümlədən, ekologiya sahəsində verdiyi tövsiyələr bu gün də görülən işlərdə rəhbər tutulmaqdadır.[4]

Müstəqil Azərbaycanda ətraf mühitin və ekologiyanın mühafizəsi sahəsində dövlət siyasətinin əsası məhz Ulu öndər Heydər Əliyevin Prezidentliyi dövründə formalaşmağa başlayıb, Bakı və Abşeronun yaşıllaşdırılmasına, pozulmuş ekoloji tarazlığın bərpasına, təbiətə vurulmuş yaraların sağalmasına daha böyük əzmkarlıqla başlanılıb, 2001-ci ildə Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaradılıb. Ölkəmizdə bu dövrdə qəbul edilən ekoloji siyasətə dair ilk sənəd olan "Azərbaycan Respublikasının Ekoloji Konsepsiyası"nda respublikamız üçün ətraf mühitin mühafizəsi baxımından mühüm əhəmiyyət kəsb edən problemlərin həlli üzrə əsas prinsiplər öz əksini tapıb, sağlamlıq və ətraf mühitin mühafizəsi baxımından hüquqi-normativ aktların hazırlanması və qəbul edilməsi sahəsində bir çox işlər görülüb. 1999-cu ildə Milli Məclisin qəbul etdiyi "Ekoloji təhlükəsizlik haqqında" Qanun Ulu öndər tərəfindən təsdiq olunub. Heydər Əliyev sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə (1969-1982) yaşıllığın qədrini bilməyənlərə anlatdı ki, yaşıllıq olmayan yerdə həyat yoxdur. 2000-ci ildə bu istiqamətdə daha iki qanun - "Ətraf mühitin mühafizəsi haqqında" və "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" qanunlar qəbul edilib. O ağır keçid illərində bütün çətinliklərə baxmayaraq, Azərbaycan dövlətinin yaşıllaşdırma, abadlaşdırma, ekologiya və ətraf mühitin qorunması sahəsində gördüyü böyük işlərlə yalnız fəxr etmək olar.

Son illər isə əldə olunmuş nailiyyətlər dövlətin iqtisadi əsaslarını daha da möhkəmləndirərək qeyri-neft sektorunun, infrastruktur sahələrinin, regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi, yoxsulluğun azaldılması, ekoloji təhlükəsizliyin təmin olunması və digər məsələlərin həlli istiqamətində daha təsirli tədbirlərin həyata keçirilməsi üçün imkanları genişləndirib. Azərbaycanda davamlı inkişaf konsepsiyasının müddəalarına uyğun olaraq iqtisadi inkişafın ekoloji tarazlıqla vəhdət təşkil etməsi, üstünlüyün ətraf mühitin qorunmasına verilməsi, ekoloji problemlərin ilk növbədə həll olunması, gələcək nəsillərin imkanları məhdudlaşdırılmadan çağdaş nəsillərin rifahının yaxşılaşdırılması ön xəttə çəkilib. Buna nail olmaq üçün, ilk növbədə, iqtisadiyyatın səmərəliliyinin yüksəldilməsi və ətraf mühitin qorunmasının təmin olunması istiqamətində çoxşaxəli fəaliyyət həyata keçirilir.

Ölkədə iqtisadiyyatın bütün sahələrinin inkişafı ilə bağlı mövcud olan ekoloji problemlərin həll edilməsi üçün təmiz texnologiyaların tətbiqinə böyük yer verilir. "Yaşıl iqtisadiyyat"a sərmayələrin cəlb olunması üçün ekoloji cəhətdən təmiz alternativ enerji mənbələrindən geniş istifadə etmək, istilik effekti yaradan qazları azaltmaq üçün, sənaye, nəqliyyat, tikinti və digər sahələrdə enerjidən səmərəli istifadə üzrə tədbirlər həyata keçirilir. Ölkəmizdə "yaşıl iqtisadiyyata" keçid mərhələsində ekoloji və iqtisadi tələblərə cavab verməyən çoxlu sayda müəssisələr bağlanıb, digərləri yenidən qurularaq modernləşdirilib, yeni aztullantılı və tullantısız texnologiyalar tətbiq olunub. [2]

Təbii ehtiyatların mənimsənilmə intensivliyi, Xəzər hövzəsinin Azərbaycan Respublikası üzrə ekoloji təhlükəsizliyinin təmin edilməsi sahəsində daha əməli tədbirlərin həyata keçirilməsi, aparılan işlərin tam ekoloji nəzarətdə saxlanılması, eyni zamanda, ekoloji ekspertiza tələblərinin mövcud dünya standartlarına uyğun qurulması problemlərin azalmasına, bu sahədə dönüşün yaranmasına gətirib çıxarıb. Bu baxımdan, istehsal intensivliyi ilə müşayiət olunan və formalaşan tullantıların ətraf mühitdən təcrid edilməsi, onların utilizasiyası və idarə olunması xüsusi prinsipiallıq kəsb edir.

Azərbaycanın inkişafına və modernləşdirilməsinə hədəflənmiş səmərəli dövlətçilik siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi sosial-iqtisadi siyasəti uğurla davam etdirən Prezident İlham Əliyev fəaliyyətində ölkəmizin ekoloji durumuna xüsusi diqqət və qayğı göstərir. Ekologiya və Təbii Sərvətlər Nazirliyi də müstəqil Azərbaycan Respublikasının zəngin təbiətini, təbii sərvətlərini qorumaq, bərpa etmək üçün Ümummilli liderimiz Heydər Əliyevin tövsiyələrini rəhbər tutaraq bu istiqamətdə vaxtilə başlanılmış işləri davam etdirir, bu yöndə yeni-yeni layihələr həyata keçirilir. Ölkəmizin ən ciddi ekoloji problemlərinin həllinə cəmiyyətin, yerli və beynəlxalq təşkilatların diqqəti cəlb olunmaqla dövlətin müəyyənləşdirdiyi ekoloji siyasət reallaşdırılır. Bütövlükdə, ölkəmizdə ekoloji tarazlığın qorunması, ətraf mühitin mühafizəsi sahəsində əsaslı dönüş yaranıb, təbii ehtiyatların, o cümlədən

faydalı qazıntıların, su, torpaq, hava kimi əvəzsiz sərvətlərin, meşələrin və biomüxtəlifliyin mühafizəsi sahəsində mühüm tədbirlər həyata keçirilib.

Bu istiqamətdə bioloji müxtəlifliyin qorunub saxlanılmasında bir növ nəzərəçarpacaq sıçrayışa nail olunub və bu sahə fəaliyyətin əsas istiqamətlərindən birinə çevrilib. Həyata keçirilmiş tədbirlər nəticəsində xüsusi mühafizə olunan təbiət ərazilərinin ümumi sahəsi 2003-cü ildən etibarən təxminən 2 dəfə artırılaraq ölkə ərazisinin 10,3 faizinə çatdırılıb. Hazırda ölkədə ümumi sahəsi 893 min hektar olan xüsusi mühafizə olunan təbiət əraziləri, o cümlədən 9 milli park, 11 dövlət təbiət qoruğu və 24 dövlət təbiət yasaqlığı fəaliyyət göstərir. Bu gün əsas diqqət xüsusi mühafizə olunan təbiət ərazilərinin beynəlxalq standartlara uyğun infrastrukturunun yaradılmasına yönəldilib. Qısa zaman ərzində Qafqazda ən böyük Şahdağ Milli Parkının nümunəvi infrastrukturu qurulub, Şirvan və Hirkan Milli parklarında ekoturizm şəhərcikləri yaradılıb. Vəhşi təbiətin mühafizəsi istiqamətində aparılan işlər davam etdirilir və Heydər Əliyev Fondunun dəstəyi ilə həyata keçirilən layihə çərçivəsində 150 başadək ceyran öz tarixi areallarına köçürülüb. [1]

Yaşıllıqların artırılması sahəsində son 8 il ərzində Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən arid sahələr və aşağı keyfiyyətli torpaqlarla səciyyələnən ərazilərin, o cümlədən Bakı və Abşeron yarımadasının yaşıllaşdırılması ilə bağlı müasir metodlara əsaslanan iri yaşıllaşdırma layihələri həyata keçirilib, 3776 hektardan artıq ərazidə 5 milyona yaxın ağac əkilib, müasir damcılı suvarma sistemləri ilə təmin olunub. Bu layihələr çərçivəsində müxtəlif bölgələrdə 1850 ha sahədə 1 265 mindən artıq məhsuldar və davamlı zeytun tingləri əkilib. Azərbaycanda tarixən yaradılmış zeytun bağlarından hazırda 900 hektara qədəri qorunub saxlanılıb ki, son zamanlar əkilmiş zeytun ağaclarının hesabına onların sahəsi 3 dəfədən çox artıb.

Beləliklə, ölkəmizdə ekologiya və ətraf mühitin qorunması istiqamətində mühüm tədbirlər həyata keçirilir. Ümummilli lider Heydər Əliyevin layiqli davamçısı, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə sosial-iqtisadi inkişaf sahəsində müəyyən olunmuş düzgün siyasət nəticəsində bu siyasətin tərkib hissəsi olan ekoloji durumun sağlamlaşdırılması və təbii sərvətlərdən səmərəli istifadə edilməsinə bundan sonra da nail olunacaq.

1993-cü ildə yenidən hakimiyyətə gəlmiş Ulu öndərimiz ekoloji məsələləri bir daha ön cərgəyə çəkdi və meşə, torpaq, su və s. haqqında bir sıra yeni qanunlar qəbul edildi. 1998-ci ildə ekoloji prioritetləri müəyyən edən "Ətraf mühitin mühafizəsi üzrə Milli Fəaliyyət Planı" hazırlandı. Bu Proqramda nəzərdə tutulmuş layihələrin həyata keçirilməsi nəticəsində Azərbaycanda müasir Təhlükəli Tullantılar poliqonu, Xıllı Nərə Balıqartırma zavodu inşa edildi.

2003-cü ildə Heydər Əliyev tərəfindən ekoloji siyasətin müasir strategiya sənədi olan "Ekoloji cəhətdən davamlı sosial-iqtisadi inkişafa dair" Milli Proqram təsdiq edildi. Bu strateji proqram əsasında ətraf mühitin müxtəlif sahələri üzrə 4 milli və dövlət proqramları, Kompleks tədbirlər Planı təsdiq edilib və həyata keçirilir.

Dövlət başçısı kimi Ümummilli liderin ekoloji siyasətinin prioritet istiqamətlərindən biri də ölkədə mövcud olan su ehtiyatlarının çirklənməsinin qarşısının alınması, xüsusən də ölkənin su təchizatı, onun inkişafı və dirçəlişi olub. Ona görə də, bu istiqamətdə Ulu öndər Heydər Əliyev tərəfindən bir çox tədbirlər həyata keçirilib. Bakıda yaşıllıq zonalarının salınması su təchizatında böyük irəliləyişlər nəticəsində mümkün olub.

Sonrakı illərdə Ümummilli lider Heydər Əliyevin ölkənin ekoloji vəziyyətinin yaxşılaşdırılması, ağacların əkilməsi, xüsusən də Bakıda və Abşeron yarımadasında yaşıllıq zolaqlarının genişləndirilməsi üçün verdiyi tapşırıqlar, su ehtiyatlarının çirklənməsinin qarşısının alınması, ölkənin su təchizatı, inkişafı və dirçəlişi istiqamətində gördüyü tədbirlər onun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi altında bu gün də uğurla davam etdirilir.

## ƏDƏBİYYAT


1. heydar-aliyev-foundation.org/az
2. www.yeniazerbaycan.com
3. president.az
4. 100il.eco.gov.az

***Зохра Фуад кызы Алиева***
***Студентка факультета “Финансы и туристическое дело”, 4 курса, группы №276 Азербайджанского Университета Кооперации***

***Айгюн Тапдыг гызы Мамедова***
***Преподаватель кафедры “Финансы и банковское дело” Азербайджанского Университета Кооперации***

**Роль Национального Лидера Гейдара Алиева в улучшении экологической среды в Азербайджане**

***Резюме***

Общенациональный лидер Гейдар Алиев в области гигиены окружающей среды в Азербайджане последовательно принимает меры в направлении решения экологических проблем в нашей республике на основе принципов устойчивого развития. Применение чистых технологий для решения существующих экологических проблем, связанных с развитием всех сфер экономики страны. В результате правильной политики, определенной в области социально-экономического развития, происходит улучшение экологической ситуации, что является частью этой политики.

***Ключевые слова: Экологическая безопасность, окружающая среда, природные ресурсы, озеленение, благоустройство, экология.***

***Zohra Fuad Aliyeva***
***Azerbaijan Cooperation University***
***4th year of the “Finance and Tourism Business” faculty, Student of group No. 276***

***Aygun Tapdig Mammadova***
***Azerbaijan Cooperation University***
***Teacher of the “Finance and Banking” department***

**The role of National Leader Heydar Aliyev in environmental improvement in Azerbaijan**

***Summary***

National Leader Heydar Aliyev in environmental health in Azerbaijan, measures taken consistently in the direction of solving environmental problems in our republic based on the principles of sustainable development. Application of clean technologies to solve existing environmental problems related to the development of all areas of the economy in the country. As a result of the right policy defined in the field of socio-economic development, the improvement of the ecological situation, which is a part of this policy.

***Keywords: Environmental safety, environment, natural resources, greening, beautification, ecology.***